**Azərbaycan Dövlət İqtisad Universiteti**

**«Beynəlxalq İqtisadi Münasibətlər» kafedrası**

# DÜNYA İQTİSADİYYATI



**i.e.d., prof. Hacızadə Elşən Mahmud oğlu**

**BAKI - 2011**

# *Dünya iqtisadiyyatının* Hərbi-Siyasi *problemləri*

## Mövzunun planı

*l. Qlobal strateji vəziyyət.*

*2. Nüvə müharibəsi təhlükəsi.*

*3. Qlobal silahlanma prosesi.*

*4. Problemin həlli yolları.*



# Problemin *qlobal* xarakteri

Xarici mümkün müdaxilədən müdafiə dövlətin ən mühüm funksiyalarındandır.

Dünyada raket-nüvə, kimyəvi, bakterioloji, bioloji silah ehtiyatlarının toplanması mövcud müdafiə tələblərini qat-qat üstələyir.



Dünya əhalisinin 25 milyondan çoxu dinc məhsuldar əməkdən kənarda qalaraq hərbi işlərə cəlb olunmuş, bundan da artıq əhali isə bu hərbi qüvvələrin xidmətinə səfərbər edilmişlər.



Kütləvi qırğın silahlarının artımı elə bir səviyyəyə qalxmışdır kı, o artıq özünün əsas - düşməni zərəsizləşdirmək məqsədlərinə cavab verməyərək dünyanın sonrakı mövcudluğunu şübhə altına alır.

Bütün bunlar dünyanın hərbi-siyası probleminin qlobal xarakterliyində təzahür olunur.

# I və II dünya müharibələri

| Göstəricilər | I Dünya müharibəsi | II Dünya müharibəsi |
|---|---|---|
| **Davamiyyət** | 4 il, 3,5 ay | 6 il |
| **İştirakçı dövlətlərin sayı** | 30-dan çox | 60-dan çox |
| **İştirakçı dövlətlərin ümumi aktiv əhalisi** | 1 milyard | 1,7 milyard |
| **Hərbi əməliyyatların sahəsi** (*milyon* $km^2$) | 4-dən çox | 22-dən çox |
| **Səfərbər olunmuş hərbi qüvvələr** (*milyon nəfər*) | 70-dən çox | 110-dan çox |
| **Həlak olanların sayı** (*milyon nəfər*) | 13,6 | 60-dan çox |
| **Yaralılar və əlillər** | 20-dən çox | 90-dan çox |
| **Maddi zərər** (*milyard dollar*) | 360 | 4000 |
| **Təyyarələrin sayı** | 181,9 | 667,0 |
| **Tankların sayı** | 9,2 | 282,0 |
| **Artilleriya qurğuları və minomyotların sayı** | 168,9 | 2527 |

# Milli təhlükəsizlik

***Milli təhlükəsizlik*** **– ayrıca götürülmiş millətin daxili və xarici təhlükələrdən qorunma səviyyəsini xarakterizə edən anlayış.**

***Milli təhlükəsizliyin*** **tərkib hissələri:**

- **Dövlət təhlükəsizliyi - dövlətin daxili və xarici təhlükələrdən qorunma səviyyəsi;**
- **İctimai təhlükəsizlik – şəxsiyyətin və cəmiyyətin daxili ümumi təhlükəli xarakterli hadisələrdən qorunması səviyyəsi**
- **Texnogen təhlükəsizlik – texnogen xarakterli təhlükələrdən qorunma;**
- **Ekoloji təhlükəsizlik və təbii fəlakət təhlükələrindən qorunma**



# Hərbi *xərclər*

Hərbi *xərclər* dövlətin müdafiəsi, hərbi qüvvələrin saxlanılmasının hazırkı faktiki xərcləri olaraq əsasən dövlət büdcəsi hesabına formalaşdırılır.

Hərbi *xərclər* iqtisadi inkişafa təsir edir.

Hərbi *xərclər* ölçülərinə görə mülki xərcləri üstələyir.

Hərbi *xərcləri* 2008-ci ildə ən yüksək olan dövlətlər (*$ milyard*).

1. ABŞ - 607
2. Çin - 84.9
3. Fransa - 65.7
4. İngiltərə - 65.3
5. Rusiya - 58.6
6. Almaniya - 46.8
7. Yaponiya - 46.3
8. İtaliya - 40.6
9. Səudiyyə Ərəbistanı - 38.2
10. Hindistan – 30





NATO-nun *xərcləri* 850

# Şimali Atlantika Müqaviləsi Təşkilatı - NATO

**NATO (ingiliscə - *North Atlantic Treaty Organization*)**
***4 aprel 1949-cu ildə qurulmuş hərbi ittifaq.***

**NATO - sülhün qorunmasını və azadlıqların müdafiəsini siyasi həmrəylik yolu ilə təmin edən və üzvlərinə qarşı yönəlmiş istənilən aqressiya formalarının dəf edilməsini, lazım gəldikdə isə hərbi gücdən istifadə edilməsini nəzərdə tutan müstəqil dövlətlərin alyansıdır.**

**NATO-nun 28 üzvü var:**

**Amerika Birləşmiş Ştatları, Albaniya, Almaniya, Belçika, Böyük Britaniya, Bolqarıstan, Çexiya, Danimarka, Estoniya, Fransa, İspaniya, İtaliya, İslandiya, Kanada, Latviya, Litva, Lüksemburq, Macarıstan, Niderland, Norveç, Polşa, Portuqaliya, Rumıniya, Slovakiya, Sloveniya, Türkiyə, Yunanıstan**



# Kollektiv Təhlükəsizlik Təşkilatı Müqaviləsi



***Kollektiv Təhlükəsizlik Təşkilatı Müqaviləsi***
**MDB çərçivəsində yaradılmış hərbi-siyasi ittifaq.**

***Kollektiv Təhlükəsizlik Təşkilatı Müqaviləsi***
**15 may 1992-ci ildə Daşkənddə imzalanmışdır.**

***Kollektiv Təhlükəsizlik Təşkilatı Müqaviləsi***
**hər 5 ildən bir avtomatik uzadılır.**

***Kollektiv Təhlükəsizlik Təşkilatı Müqaviləsinin***
**üzvləri - Rusiya, Qazaxıstan, Qırğızıstan, Ermənistan, Tacikistan, Özbəkistan.**

***Kollektiv Təhlükəsizlik Təşkilatı Müqaviləsinə***
**sonradan qoşulmuşlar və müqavilənin uzadılmasına razılaşmamışlar Azərbaycan və Qürcüstan.**

# Müasir Geosiyasi münasibətlər sistemi

*Geosiyasət* (*yunanca* γη - torpaq + πολιτική - *dövət və ictimai işlər*) **- məkana nəzarətlə bağlı ictimai elm.**



*Geosiyasət* **terminindən ənənəvi olaraq əsasən coğrafi amillərin siyasətə təsiri baxımından istifadə olunur.**

**Müasir** *Geosiyasi* **münasibətlər sistemində BMT Təhlükəsizlik Şurasının üzvləri ABŞ, Rusiya, Franca, İngiltərə Çin, həmçinin Avropa Birliyi, Böyük Yeddilər, Böyük İyirmilər əsas fiqurantlara çevrilmişlər.**



**Yeni** *Geosiyasi* **münasibətlər dövlətlərarası birliklərin rolunun artması və birliklər vasitəsi ilə qlobal siyasətin axınını tənzimlənməsi üzərində irəliləyiş tapır.**

# Müasir Geosiyasi münasibətlər sistemi

**Müasir Geosiyasi münasibətlər sistemindəki meyillər:**



- ***ABŞ-ın geostrateji siyasəti – dünyanın xüsusi hərbi və iqtisadi əhəmiyyət kəsb edən bir sıra regionlarında özünün hökmranlığını bərqərar etmək;***
- ***Rusiyanın yeni imperialim siyasəti;***
- ***NATO-nun genişlənməsi;***
- ***Avropanın dünyanın «yeni qaydalıq» daşıyıcısı rolu;***
- ***ABŞ-Yaponiya alyansı;***
- ***Çinin spesifik inkişaf təmayülü və onun dünya qütbləşməsinə təsiri;***
- ***Panislamçılıq və islamm fundamentalizmi;***
- ***Böyük Turan ideyası;***
- ***Yaxın və Orta Şərq;***
- ***Ərəb İttifaqı;***
- ***Beynəlxalq terrorizm;***

# Qütbləşmə

## və dünyanın yenidən bölüşdürülməsi

**Bipolyarlıq** (*iki qütblülük*) **- iki dövlət arasında güclərin bölgüsü**



**Qlobal Bipolyarlıq hərbi-siyasi bloklar yaratmaqla** (*bəzən ideoloji, dini, mədəni baryerlər yaratmaqla*) **dünyanın iki gücün təsir sferasına bölünməsini ehtiva edir.**

**1946-1991-ci ilər SSRİ və ABŞ münasibətləri bipolyarlığın nümunəsidir.**



**Multipolyarlıq - Çoxpolyarlıq dünyanın quruluş sistemində azı üç olmaqla eyni hərbi, iqtisadi və siyasi gücə malik olma.**

**Sosialist düşərgəsinin, SSRİ dövlətinin süqutu dünyanın iki qutblüyünün sona yetdiyi anlamını yaratdısa da, əslində sürətlə dəyişən hadisələrə ayrı-ayrı iri dövlətlərdə baş verən meyillər belə reallığın tamamlanmadığını bəyan etməkdədir.**

# Nüvə müharibəsi təhlükəsi

***Nüvə müharibəsi*** **- dövlətlər və hərbi bloklar arasında üstün olaraq nüvə və nüvə-istilik silahlarından istifadə əsaslı hərbi münaqişə.**



# **Nüvə müharibəsi** təhlükəsinin aradan qaldırılması uğrunda mübarizə

- Nüvə silahının yayılmaması müqaviləsi – BMT – 1968-ci il.

- Müqafilə üzrə nüvə dövlətləri 1967-ci ilin 1 yanvarına qədər nüvə silahını yaratmış və sınaqdan keçirmiş ölkələr SSRİ, ABŞ, Böyük Britaniya, Fransa və Çin hesab olunurlar.



- Strateji və Hücum Silahlarının məhdudlaşdırılması sahəsində SSRİ ilə ABŞ arasında 26 may 1972-ci ildə imzalanmış müvəqqəti saziş.

- Strateji və Hücum Silahlarının məhdudlaşdırılması sahəsində SSRİ ilə ABŞ arasında 18 iyun 1978-cu ildə imzalanmış müvəqqəti saziş.



- Nüvə müharibəsinin qarşısının alınması bəyannaməsi 9 dekabr 1981-ci ildə BMT Baş Assambleyasının 36-cı sessiyasında qəbul olunmuşdur.

- ABŞ-la Rusiya arasında Strateji və Hücum Silahlarının azaldılması və məhdudlaşması haqqında 30-31 iyul 1991-ci il Praqa sazişi.

- ABŞ-la Rusiya arasında Strateji və Hücum Silahlarının azaldılması və məhdudlaşması haqqında 9 aprel 2010-ci il Praqa sazişi

# SSRİ-Rusiya ilə ABŞ-in nüvə başlıqlı silah arsenalı



# «Soyuq müharibə» *dövrünə retrospektiv baxış*

***«Soyuq müharibə»*** **- 1940-cı illərdən 1990-cı illərin başlanğıcına qədər SSRİ və onun müttəfiqləri ilə ABŞ və onun müttəfiqləri arasında qlobal, geosiyasi, iqtisadi və ideoloji cəbhələşmə.**

**Cəbhələşmənin əsas tərkib hissəsi kimi ideologiya çıxış etmışdir.**

***«Soyuq müharibə»*** **ifadəsindən ABŞ prezidenti Harri Trumenin (1884-1972) məsləhətçisi Bernard Barux *(1870-1965)* ilk dəfə 1947-ci il 16 apreldə Cənubi Karolina ştatında nümayəndələr palatası qarşısındakı çıxışında istifadə etmişdir**.



H.Trumen



B.Barux

# Hərbi Sənaye Kompleksi
# və onun geosiyasi situasiyaya təsiri

***Hərbi Sənaye Kompleksi*** (HSK) - **dövlətin və onun hərbi strukturlarının müvafiq tələblərinin ödənilməsinə yönəlmiş hərbi və xüsusi texnikanın hazırlanmasını həyata keçirən elmi-tədqiqat və istehsal müəssisələri məcmusu.**



***Hərbi Sənaye Kompleksi*** **- hərbi-siyasi və hərbi-iqtisadi qərarların qəbul edilməsinə təsir göstərir.**



***Hərbi Sənaye Kompleksinin*** **nüvəsini hərbi-sənaye konsernləri təşkil edirlər ki, onlar da fəaliyyətlərində hərbi məhsul tələbinin davamlı artmasında maraqlıdırlar.**

# Hərbi məhsul







***Hərbi məhsul*** **– hərbi ehtiyacların ödənilməsinə yönəlmiş (*hərbi texnika, silah, hərbi ləvazimat, elmi-texniki məhsul və s.*) məhsulları əhatə edir.**

**Dövlət tərəfindən hərbi ehtiyaclara məsrəf olunun xərclər sosial və iqtisadi rifah hesab olunmurlar.**

***Hərbi məhsul*** **istehsal vasitələri istehsalı və insanların zəruri tələblərinin ödənişinə xidmət göstərmir.**

**Buna görə də hərbi məqsədlərə ayrılan material resurslar millətin sosial-iqtisadi rifah halına birbaşa təsir göstərmir.**

**Keynsiyan yanaşmada isə təyinatından asılı olmayaraq iqtisadiyyatın hər hansı sahəsində investisiya aktivliyinin, məşğulluğun gücləndirilməsi milli gəlir səviyyəsində dövlət xərclərinin stimullaşdırılması effekti ilə müşayiət olunur.**

# Dünya iqtisadiyyatının Militarizasiyası

***Militarizasiya*** (*latınca* - militaris - *hərbi*) **– dövlət orqanlarının iqtisadiyyat sferasında, siyasət və sosiumda dövlətin hərbi gücünün artmasına yönəlmiş hərəkəti.**

**İqtisadiyyatın *Militarizasiyası* - hərbi sektorun milli təsərrüfatın digər sektorlarına nisbətdə genişlənərək digər sahələrə zərəri.**

**Hərbi sənayesi olan ölkələrdə İqtisadiyyatın *Militarizasiyası* silah ticarəti hesabına artır.**

**İqtisadiyyatın *Militarizasiyası* problemi inkişaf etməkdə olan ölkələrdə daha kəskindir**



# Dünya silah bazarı

## Dünya silah bazarının Statistikası

2009-cu il ildə bütün silah satışı müqavilələri 26,4 milyard $ həcmində olmuşdur.



- ABŞ 12,1 milyard $ - bazarın 45,8%-i;



- Rusiya 5,8 milyard $ - bazarın 29,6,%-i;
- Fransa 2,9 milyard $ - bazarın 10,69,%-i;
- Çin 0,6 milyard $ - bazarın 0,3,%-i;

# Silah istehsalı

**Hər il dünyada 8 milyon kiçik və yüngül silah, 12 milyarda yaxın patron istehsal olunur.**



**Dünyada hər 10 adama 1 tapança düşür.**



**Hər gün odlu silahdan istifadəyə görə 1000 insan məhv olur.**



**Hər il dünyada silah və hərbi texnika istehsalı büdcəsi 1 trilyon dollara yaxınlaşır.**

# Dünya silah bazarı:

## *əsas istehsalçılar və ixracatçılar*



**Dünya silah və hərbi texnika bazarı dünya əmtəə bazarının tərkib hissəsi olaraq dünya əmtəə dövriyyəsində mühüm rol oynayır.**

**Dünya silah bazarında əsas satıcıları** (*85%*) **qismində böyük 8-lik ölkələri çıxış edirlər.**

**Əsas alıcılar isə öz xalıqına qarşı repressiyalar həyata keçirən avtoritar və diktatura rejimləri olan ölkələr** (*Sudan, Birma, Konqo Respublikası, Kolumbiya, Filippin, İran və s.*).



# *Dünya silah bazarının lideri* ABŞ

- **Silah istehsalı dövriyyəsi 2009-cu il 40 milyard dollardan çox «Boeing» korporasiyası** (*müasir qırıcı və bombardmanşı təyyarələr, peyk və peyk sistemləri, elektron sistemlər, hərbi hava qevvələrində müdafiə sistemləri*) **dünyada silah istehsalında lider mövqedə dayanır.**
- **Silah istehsalı dövriyyəsi 2009-cu il 40 milyard dollara yaxın «Lockheed Martin» raket *(Patriot)* istehsalı.**
- **Silah istehsalı dövriyyəsi 2009-cu il 30 milyard dollar «Northrop Grumman» avia daşıyıcı gəmilər, submarina və hərbi gəmilər**

# Separatizm və Terrorun dayandırılması zəruriliyi




***Separatizm*** (latınca - *separatus* - ayrıca) **- ayrılmaya səy, yeni dövlət və avtonomluq əldə etmə üçün dövlətdən ayrılma hərəkatı.**

**Terrorizm** (latınca - *terror* - qorxu, vəhşət) **- ideoloji motivləşmiş güc tətbiqli siyasi mübarizə variantlarından biri.**

**Terrorizm mahiyyətində qorxu məqsədli zorakılıq dayanır.**

**Terrorizm subyektləri ayrıca şəxslər və qeyri-hökumət təşkilatlarıdır.**



**Terrorizmin obyekti dövlət qulluqçuları və yaxud ayrı-ayrı şəxslər timsalında ictimaiyyət təşkil edir.**

# Əsas anlayışlar

- ***Milli təhlükəsizlik;***
- ***Bipolyarlıq və Multipolyarlıq;***
- ***«Soyuq müharibə»;***
- ***Hərbi Sənaye Kompleksi;***
- ***Separatizm və Terroruzm.***



# T T ə Ə k K r R a A r R

- *Müasir Geosiyasi münasibətlər sistemi;*
- *Qütbləşmə  və dünyanın yenidən bölüşdürülməsi;*
- *Nüvə müharibəsi təhlükəsi;*
- *Dünya iqtisadiyyatının Militarizasiyası;*
- *Dünya silah bazarı.*



# Mövzunun ədəbiyyat siyahısı

1. Hacızadə E.M. Sosiallaşan iqtisadiyyat, Bakı: Elm, 2006. 509 s.
2. Кокошин А. А. Ядерные конфликты в XXI веке. М., 2003.
3. Ломакин В.К. Мировая экономика. М.: ЮНИТИ, 2007. 410 с.
4. Кудров В.М. Мировая экономика. М.: БЕК, 2004, 464 с.
5. Якобсон А. Я., Максимов И. М. Лекции по мировой экономике: Учебное пособие. Иркутск: ИрГУПС, 2006. 87 с.
6. Социально-экономическая география зарубежного мира, М.: Крон-Пресс, 1998, 592 с.
7. Мировая экономика (*под ред. Булатова*). М.: Экономисть, 2007. 860 с.



# Son

# TƏŞƏKKÜR EDİRİK!

# Azərbaycan Dövlət İqtisad Universiteti

Bakı ş. İstiqlaliyyət 6, ADİU, III mərtəbə,

Otaq No. 000

Tel: (+99412) 492 – 31 – 21

(+99412) 492 – 62 – 64

E-mail: elshan@mail.az

Veb sayt www.hajizadeh@narod.ru

